# PERSPEKTİV YEMİŞ SORTLARININ QİDA DƏYƏRLİLİYİ

**Elmar Allahverdiyev, Fəxrəddin Ağayev, Xurşud Məmmədova, Tatyana Soluyanova, Türkan Hacıyeva**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Tərəvəzçilik Elmi Tədqiqat İnstitutu, teti_az@mail.ru*

Yemiş müalicəvi-profilaktik xüsusiyyətlərə malik əvəzedilməz məhsuldur. Yemişin qida dəyərliliyi ilk növbədə onun kimyəvi tərkibindən asılıdır. Çoxlu vitaminlərlə (E, PP, A, B qrupu, C, β-karotin), makro- və mikroelementlərlə, üzvi turşularla, şəkərlərlə zəngin olan möcüzəli yemiş meyvəsinin biokimyəvi tərkibinin öyrənilməsi insanların sağlamlığı nöqteyi-nəzərindən böyük əhəmiyyət kəsb edir.

2021-2022-ci illərdə açıq sahədə rayonlaşdırılmaya təqdim edilən iki perspektiv yemiş sortunun (Günəş və Sədəf) meyvələrinin yetişmə fazasından asılı olaraq biokimyəvi tərkibi tədqiq edilmişdir. Müəyyən olunmuşdur ki, ilkin meyvələrin formalaşması dövründə (texniki yetişkənliyə 14-16 gün qalmış) yemiş meyvələrində quru maddənin, şəkərlərin, ekstraktiv maddələrin və nitratların miqdarı hər iki sortda ən az olur (müvafiq olaraq, 5,9% və 5,1%, 3,5% və 2,6%, 3,5% və 2,6%, 5,0% və 4,0%, 69,8 mq/kq (Günəş sortunda nitratların ən az miqdarı – 32,0 mq/kq kütləvi yetişkənlik dövründə müşahidə edilir) və 70,8 mq/kq). Meyvələrin yetişməsi dövrünə keçid hər iki sortda bütün öyrənilən göstəricilərin qiymətinin kəskin artması ilə müşayiət olunur. Belə ki, bu dövrdə Günəş sortunda quru maddə 1,80, şəkərlər 2,63, ekstraktiv maddələr 2,06, nitratlar isə 1,87 dəfə artır. Günəş sortundan fərqli olaraq, Sədəf sortunda bu göstəricilərin qiyməti aşağıdakı rəqəmlərlə səciyyələnir: 1,78, 2.89, 2,28 və 1,28 dəfə. Yemiş meyvələrinin kütləvi yetişməsi ilə əlaqədar hər iki sortda quru maddənin, şəkərlərin və ekstraktiv maddələrin miqdarı maksimal həddə çatır (müvafiq olaraq, 11,3% və 11,1%, 9,3% və 9,0%, 10,6% və 10,2%), toksik maddələrin – nitratların miqdarı isə xeyli azalır (Günəş sortunda 4,08, Sədəf sortunda isə 1,16 dəfə). Bu, yemiş bitkisinin öz şəkər/nitrat balansını tənzimləməsinin, özünü qida üçün əlverişli hala salmasının göstəricisidir. Yemiş meyvələri bioloji yetişkənliyə çatdıqda, yəni vegetasiyanın sonunda nitratlardan başqa bütün göstəricilər azalır. Nitratların miqdarında isə nisbətən artım baş verir. Bu onunla izah edilir ki, artıq vegetasiyanın sonunda yemiş meyvələrində zülalların və sərbəst amin turşularının sintezi zəifləyir, məhz bu səbəbdən də nitratların artması müşahidə edilir. Lakin bu meyvələr müəyyən müddət saxlandıqda (yığımdan sonra 10-12 gün) nitratların miqdarı sintez proseslərinin başa çatması ilə əlaqədar tamamilə aşağı düşür, yalnız toxumun müdafiə funksiyalarının həyata keçirilməsi üçün zəruri olan səviyyədə qalır. Bu hədd təxminən 25-30 mq/kq təşkil edir.

Beləliklə, yemiş meyvələrinin kimyəvi tərkibi sortların bioloji xüsusiyyətlərindən və meyvələrin yetişmə səviyyəsindən asılı olaraq xeyli dəyişir, meyvələrin kütləvi yetişkənlik dövründə insan qidası üçün zəruri olan, yemişin qida dəyərliliyini müəyyən edən göstəricilər maksimal səviyyəyə çatır, toksik maddələrin – nitratların miqdarı azalır.